1_Layout 1 12.09.2025 12:23 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 17 (705)

16 sentyabr 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# DOSTLUĞA VƏ STRATEJİ TƏRƏFDAŞLIĞA SÖYKƏNƏN MÜNASİBƏTLƏR

## Azərbaycanla Çin arasında əlaqələr dərin və əhatəlidir

**“Azərbaycan” qəzetinin müxbiri Rəşad Cəfərlinin müəllifi olduğu “Dostluğa və strateji tərəfdaşlığa söykənən münasibətlər” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**

Prezident İlham Əliyevin bir neçə gün əvvəl Çin Xalq Respublikasına işgüzar səfəri, keçirdiyi görüşlər, iştirak etdiyi tədbirlər məlum həqiqətlərə yeni işıq saldı. Bir daha göründü ki, cənab İlham Əliyev qlobal səviyyədə xüsusi ehtiramla qarşılanan siyasi lider, Azərbaycan isə dünyanın nüfuzlu dövlətlərindəndir. Azərbaycan Prezidentinin ötən ay Vaşinqtona etdiyi səfərdən sonra bu reallıqlar, növbəti dəfə Çin səfərinin fonunda öz təsdiqini tapdı.

Beynəlxalq münasibətlər sisteminin aparıcı və nəhəng siyasi-iqtisadi qütblərindən olan Çin Xalq Respublikası ilə əlaqələri dinamik inkişaf etdirmək Azərbaycan dövlətinin xarici siyasətinin vacib istiqamətlərindəndir. Qlobal siyasi-iqtisadi konyunktura isə hər iki dövlətə mövcud əməkdaşlıq imkanlarını daha da artırmaq üçün geniş imkanlar yaradır. Elə buna görə də Azərbaycanla Çin arasında xüsusən son illərdə siyasi və iqtisadi sferalarda münasibətlər ildən-ilə yüksələn xətlə inkişaf edib, müxtəlif əməkdaşlıq sferaları meydana çıxıb.

Xatırladaq ki, hələ ötən il iyulun 3-də Qazaxıstanın paytaxtı Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı zamanı Azərbaycanla Çin arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin imzalanması iki dövlət arasındakı münasibətlərdə strateji tərəfdaşlığın əsasını qoyub. Bu ilin aprel ayında Prezident İlham Əliyevin Çin Xalq Respublikasına etdiyi dövlət səfəri zamanı imzalanan “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat” isə iki dövlətin strateji tərəfdaşlığını tamamilə yeni səviyyəyə yüksəldib. Birgə Bəyannaməyə əsasən, Azərbaycanla Çin öz maraqlarının, suverenliklərinin, təhlükəsizliklərinin və ərazi bütövlüklərinin qorunmasında bir-birinə qətiyyətli dəstək verirlər. Azərbaycan dünyada yalnız vahid bir Çinin mövcudluğunu, Tayvanın Çin ərazisinin ayrılmaz tərkib hissəsi olduğunu, ÇXR hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu tanıyır. Öz növbəsində Çin Azərbaycanın sülh gündəliyini qətiyyətlə dəstəkləyir və qarşıdurmaya yönəlmiş geosiyasi oyunları qeyri-məhsuldar hesab edir. “Son iki ildə əlaqələrimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Ötən il Astanada keçirilmiş ŞƏT Sammiti çərçivəsində biz strateji tərəfdaşlıq qurduq. Bu il mənim Çinə dövlət səfərim zamanı hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin təsis edilməsi barədə Birgə Bəyanat imzalandı. Bu tarixi hadisə Azərbaycan-Çin münasibətlərində yeni bir səhifə açdı”, - deyə Prezident İlham Əliyev sentyabrın 1-də Çinin Tiencin şəhərində “ŞƏT plyus” formatında keçirilən görüşdə bildirib.



Prezident İlham Əliyevin bu günlərdə Çin Xalq Respublikasına etdiyi işgüzar səfər Si Cinpinin dəvəti ilə reallaşdı. Səfər zamanı xüsusi qarşılanma, Prezident İlham Əliyevə göstərilən yüksək ehtiram bir daha Azərbaycan və Çin dövlətlərinin və onların liderlərinin səmimi dostluğunun təcəssümünə çevrildi.

Ümumiyyətlə, iki dövlət arasında münasibətlərin daha da genişlənərək yeni müstəviyə qədəm qoymasında Azərbaycan Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin siyasi iradəsi, onların arasındakı dostluq böyük rol oynayır. Təsadüfi deyil ki, avqustun 31-də Çinin Tiencin şəhərində Azərbaycan və Çin liderlərinin görüşü zamanı ÇXR Sədri Si Cinpin Prezident İlham Əliyevi “mənim əziz dostum” deyərək salamladı. Münasibətlərin dövlətlərin və onların liderlərinin dostluğu ruhunda inkişafı Çin liderinin Prezident İlham Əliyevə ünvanladığı məktublardan da aydın görünür. Məsələn, Si Cinpin Novruz bayramı münasibətilə Prezident İlham Əliyevə ünvanladığı məktubda yazırdı: “Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm və Sizinlə birlikdə ənənəvi dostluğumuzun möhkəmlənməsində, iki ölkənin xalqlarının rifahı naminə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsində bundan sonra da səylər göstərməyə hazıram”.

Bu gün Azərbaycanla Çin arasında müxtəlif sahələrdə əlaqələr mövcuddur ki, bunların arasında nəqliyyat dəhlizləri sahəsindəki əməkdaşlıq xüsusi yer tutur. Sürətli inkişaf yolunda olan, istehsal imkanlarını artıran Çin üçün prioritet məsələlərdən biri ixrac marşrutlarını genişləndirməkdir. Bir neçə il əvvəl Çin Xalq Respublikasının Sədri tərəfindən “Bir kəmər, bir yol” təşəbbüsünün irəli sürülməsi də bu məqsədə xidmət edir. Azərbaycan ilk gündən bu təşəbbüsə böyük dəstək verib. Azərbaycanın iradəsi ilə ərsəyə gələn Bakı-Tbilisi-Qars dəmir yolu və Orta dəhliz adlandırdığımız Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun respublikamızdan keçən hissələrinin ən müasir standartlar səviyyəsinə çatdırılması Çinin “Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində iqtisadi və nəqliyyat imkanlarının reallaşdırılması üçün perspektivlər açıb.

“ŞƏT plyus” formatında görüşdə etdiyi çıxışda Azərbaycanın “Bir kəmər, bir yol” təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olduğunu deyən Prezident İlham Əliyev onu da diqqətə çatdırdı ki, Orta dəhliz Azərbaycan vasitəsilə Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur: “Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən biridir. Biz beynəlxalq nəqliyyat dəhlizlərini fəal şəkildə inkişaf etdirir, müasir infrastruktur yaradırıq. “Şərq-Qərb” və “Şimal-Cənub” dəhlizləri yeni iqtisadi və nəqliyyat perspektivləri yaradıb, - deyə dövlətimizin başçısı bildirib. Azərbaycan Ələt Beynəlxalq Dəniz Limanının buraxılış qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona çatdırmaq niyyətindədir. Orta dəhliz Azərbaycan vasitəsilə Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur. 2022-ci ildən bəri Orta dəhliz üzrə Azərbaycan vasitəsilə yükdaşımaların həcmi təxminən 90 faiz artıb. Yüklərin bu dəhliz üzrə keçid müddəti əhəmiyyətli dərəcədə azalıb”.

Azərbaycanla Çin arasında dostluğa və strateji tərəfdaşlığa əsaslanan münasibətlər digər sferalarda da əməkdaşlığa təkan verir. Belə ki, hazırda iki dövlət arasında həm də neft-qaz, sənaye, yüksək texnologiyalar, innovasiyalar və kosmik sahələrdə də faydalı əməkdaşlıq mövcuddur. Çin şirkətləri Azərbaycanın “yaşıl enerji” layihələrində iştirak edirlər. Bu layihələrdə Çinin texnoloji təcrübəsindən istifadə edilir.

Bütövlükdə, Prezident İlham Əliyevin Çinə səfəri, keçirdiyi görüşlər, “ŞƏT plyus” formatında keçirilən görüşdə və yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış qələbənin 80-ci ildönümünə həsr olunmuş paradda iştirakı dövlətimizin başçısının yüksək siyasi nüfuzunun növbəti təsdiqi oldu. Eyni zamanda bu səfər bir daha göstərdi ki, Azərbaycan-Çin münasibətləri dostluq və strateji tərəfdaşlıq ruhunda inkişaf edir.

## Nazir Vilayət Eyvazov Naftalanda vətəndaşların müraciətlərini dinlədi və sıra baxışı keçirdi







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov sentyabrın 3-4-də Naftalan Şəhər Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Naftalan şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra rayon polis şöbəsinin inzibati binasında Gəncə, Naftalan, Goranboy, Samux, Göygöl, Daşkəsən, Xocalı, Kəlbəcər, eləcə də digər şəhər və rayonlardan gələn 172 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Nazir qəbula gələnlərin müraciətlərinin həlli istiqamətində zəruri addımların atılması və vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə ciddi tapşırıqlar verib. Müraciətlərin mütləq əksəriyyəti yerindəcə öz həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Vətən müharibəsinin 16 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 121 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 12.09.2025 12:43 Page 1



# NAZİR VİLAYƏT EYVAZOV QAZAXISTAN DAXİLİ İŞLƏR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜB



Qazaxıstan Respublikası daxili işlər nazirinin müavini - Milli Qvardiyanın Baş Komandanı general-mayor Ansaqan Baltabekovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan nazir V.Eyvazov hər iki dövlət başçılarının müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq Azərbaycan və Qazaxıstan Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın və səmərəli işbirliyinin daha da dərinləşdiyini bildirib. O, ikitərəfli əlaqələrin, xüsusilə də transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə səylərin, qabaqcıl təcrübə və operativ informasiya mübadiləsinin, həmçinin yaradılan normativ-hüquqi bazanın xalqlarımızın və dövlətlərimizin mənafelərinə, bölgədə təhlükəsizliyin təmininə xidmət etdiyini vurğulayıb.

General-mayor Ansaqan Baltabekov səmimi görüşə və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib, təmsil etdiyi qurumun əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu və bu istiqamətdə səylərini əsirgəməyəcəklərini qeyd edib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər barəsində də ətraflı fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində qazaxıstanlı qonaqlar Daxili Qoşunlar və polis orqanlarının fəaliyyəti ilə tanış olublar.

**DİN-in Mətbuat xidməti**

# BÖLMƏLƏRİN HAZIRLIĞI YOXLANILIB








Sentyabrın 3-dən 5-nə kimi 16075 saylı hərbi hissənin xüsusi təyinatlı bölmələrinin döyüş hazırlığı və döyüş təliminin vəziyyəti yoxlanılıb. Bu barədə məlumat verən Daxili Qoşunların Baş İdarəsinin qərargahının döyüş hazırlığı şöbəsinin artilleriya üzrə baş zabiti polkovnik-leytenant Əli Həsənov bildirib ki, yoxlama müddətində komandir heyətinin idarəetmə və liderlik qabiliyyəti, şəxsi heyətin atəş, fiziki və xüsusi taktiki hazırlığının səviyyəsi dərindən öyrənilib, fövqəladə hallar zamanı hərbi hissənin fəaliyyət planına uyğun olaraq xüsusi təyinatlı bölmələrə həvalə olunmuş tapşırıqların yerinə yetirilməsi üzrə dəstələrin komandanlıqlarının, qrup və yarımqrup komandirlərinin, həmçinin şəxsi heyətin bilik və bacarığına əsas diqqət yetirilib. Yoxlama müddətində xüsusi təyinatlı bölmələrdə idarəetmənin vəziyyəti, döyüş təliminin planlaşdırılması, müvafiq tədris proqramının icrası, bölmələrin şəxsi heyətinin xüsusi təlim atış çalışmaları üzrə praktiki atəş qabiliyyəti, fiziki hazırlığı, həmlə-desant, hərbi dağçılıq hazırlığı, eləcə də hərbi topoqrafiya, xüsusi taktiki hazırlıq üzrə bilik və bacarığı yoxlanılıb, qəflətən qarşıya çıxan tapşırıqların yerinə yetirilməsi zamanı düzgün, çevik, mütəşəkkil fəaliyyətin təşkili üzrə dəstələrin komandirlərinə praktiki köməklik göstərilib.

Polkovnik-leytenant Ə.Həsənov onu da vurğulayıb ki, yoxlama zamanı təlim məqsədilə xüsusi təyinatlı bölmələrin müxtəlif təlim "həyəcan" siqnalları ilə hazırlığı, çevikliyi, silahlanması, təchizatı, avtomobil və zirehli texnikaların hərəkət qabiliyyəti, əməliyyat yerinə marşın icrası, komandir heyətinin qərar qəbuletmə bacarığı yoxlanılıb.

Hərbi hissədə xüsusi təyinatlı bölmələrin komandanlıqlarının ümumi fəaliyyətlərinin yoxlanılması zamanı müəyyən olunub ki, bölmələr qarşıda duran tapşırıqların icrasına hazırdır, xüsusi təyinatlı dəstə komandirinin müavini - qərargah rəisi mayor Yasin Cəfərovun və xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri mayor Seymur Mehralıyevin iş üslubları və idarəçilik fəaliyyətləri qənaətbəxşdir.

Aparılan yoxlamalar zamanı müəyyən edilib ki, müvafiq "həyəcan" siqnalları zamanı bölmələrin şəxsi heyətinin silahlanması, ekipirovkası, texnikanın düzülüş yerinə çıxması, hərbi qulluqçuların və maddi vəsaitlərinin avtomobillərdə yerləşməsi təyin olunmuş vaxt göstəricilərinə uyğun təşkil olunur. Ümumən xüsusi təyinatlı bölmələrin döyüş hazırlığının vəziyyəti "hazırdır" kimi qiymətləndirilib.

Sonda xüsusi təyinatlı bölmələrin zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə "Dövlətə və dövlətçiliyə sadiqlik, funksional vəzifə borclarının yerinə yetirilməsində hərbi qulluqçuların məsuliyyəti" mövzusunda söhbətlər aparılıb, komandir heyəti ilə yoxlamanın yekunlarına dair xidməti müşavirə keçirilib, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün konkret tapşırıq və tövsiyələr verilib.

**kapitan Nigar Ağayeva**

# DÖYÜŞ XİDMƏTİNİ MÜVƏFFƏQİYYƏTLƏ İCRA EDƏN HƏRBİ HİSSƏ

16076 saylı hərbi hissənin şəxsi heyəti ölkənin qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, daxili işlər nazirinin və daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının əmr, göstəriş və tələblərini rəhbər tutaraq, qorunan obyektlərin etibarlı mühafizəsi və müdafiəsinin təmin edilməsi üzrə qarşıya qoyulan tapşırıqları keyfiyyətlə yerinə yetirir. Belə ki, hərbi hissədə bölmələrin çevik, gizli və fasiləsiz idarə olunması hərbi hissə komandanlığının diqqət mərkəzində saxlanılır. Bölmələrdə idarəetmənin səmərəliliyinin artırılması, yüksək döyüş hazırlığının qorunub saxlanılması məqsədilə yaradılmış idarəetmə məntəqəsinin fəaliyyəti təkmilləşdirilir, hərbi hissədən, habelə mühafizə olunan mühüm dövlət obyektlərinin yerləşdiyi fəaliyyət rayonlarından əməliyyat məlumatları fasiləsiz toplanılaraq təhlil edilir. Qəbul olunmuş qərarlar vaxtlı-vaxtında aidiyyəti üzrə çatdırılır və əlaqəli orqanlarla qarşılıqlı fəaliyyət təşkil edilir.






2003-cü ildə əsası qoyulmuş hərbi hissə Daxili İşlər Nazirliyinin, Respublika Baş Prokurorluğunun, DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin, Kriminalistika Təhqiqat İdarəsinin, Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin inzibati binalarının mühafizə və müdafiəsini təmin edir. Hərbi hissənin tərkibində mühafizə və təminat bölükləri, eləcə də komendant taqımı fəaliyyət göstərir.

Vətən Müharibəsi Qəhrəmanı, hərbi hissənin komandiri polkovnik-leytenant Nicad Bədəlovun bildirdiyinə görə, hərbi hissənin döyüş hazırlığı mühüm dövlət obyektlərinin etibarlı mühafizəsinin təşkilinə, qəflətən qarşıya çıxan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsinə, dövlət obyektlərində basqınlar, fövqəladə vəziyyət zamanı müvafiq tədbirlərin həyata keçirilməsinə yönəldilib.




Döyüş hazırlığının yüksək səviyyədə saxlanılması üçün gündəlik olaraq hərbi hissədə olan bölmələrlə təlim proqramı əsasında məşğələlər keçirilir. Bu məşğələlərdə döyüş xidmətinin əsasları, döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, dözümlülüyün artırılması istiqamətində bütün kateqoriyalı komandirlər tərəfindən müvafiq işlər aparılır. Şəxsi heyətin döyüş hazırlığının artırılması məqsədilə bütün bölüklərlə hər ay praktiki atəş məşğələləri təşkil olunur. Hissədə səhər yerbəyer mərasimi zamanı bölmələrə aidiyyəti üzrə tapşırıqlar verilir. Məsələn, sırada olan mühafizə bölüyü ilə həftəlik məşğələ cədvəlinə uyğun olaraq həm nəzəri, həm də praktiki təlimlər keçirilir. Komendant taqımı hissənin nəzarət-buraxılış məntəqəsi üzrə xidmətə cəlb olunur. Təminat bölüyünün avtomobil taqımı qarovulların daşınması üçün nəzərdə tutulan nəqliyyat vasitələrinin sazlığına nəzarət edir, eləcə də avtomobillər saxlanılan parkda sutkalıq xidməti yerinə yetirir. Təminat taqımı isə yeməklərin hazırlanmasına, həmçinin hissənin digər təminat işlərinə cəlb olunur. Hərbi hissədə fasiləsiz rabitənin təşkili üçün rabitə növbətçisi və növbətçi-siqnalçı xidmətini rabitə taqımı həyata keçirir. Ümumiyyətlə, hər bir taqım fəaliyyətini funksional vəzifələrinə uyğun qurur.





Mühafizə bölüyünün komandiri baş leytenant Cavid Xanlarlı qarşıya qoyulan tapşırıqların icrası zamanı tabeliyində olan hərbi qulluqçuların əzmkarlıq nümayiş etdirdiklərini nəzərimizə çatdırdı. Bölükdə yüksək döyüş hazırlığının qorunub saxlanılmasında bölük komandirinin müavini leytenant Kəyan Hənzadənin əməyinin danılmaz olduğunu sözlərinə əlavə etdi. Döyüş xidmətinin müvəffəqiyyətlə yerinə yetirilməsi və şəxsi heyətlə keçirilən məşğələlərin düzgün təşkili zamanı leytenant K.Həsənzadə əlindən gələni əsirgəmir.

Mühafizə bölüyünün komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Əli Həsənov hərbi qulluqçuların mənəvi-psixoloji durumlarının yaxşılaşdırılması işində vəzifələrini bacarıqla icra edir.

Ümumiyyətlə, hərbi hissənin şəxsi heyəti ilə aparılan tərbiyə işinin təşkili barədə məlumat almaq üçün hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini mayor Arzu İmanova müraciət etdik. O bildirdi ki, bölmənin döyüş hazırlığının yüksək olmasının ən vacib şərti şəxsi heyətin mənəvi-psixoloji durumunun qənaətbəxş olmasına bağlıdır: "Mənəvi cəhətdən hazırlıqlı olmayan bir hərbçinin döyüş qabiliyyətindən heç danışmağa dəyməz. Məhz bu istiqamətdə irəliləyişlərin olması üçün əlimizdən gələni əsirgəmirik. Belə ki, günün nizam qaydalarına uyğun olaraq hər gün müəyyən edilmiş vaxtda qarovul xidmətinə cəlb edilən şəxsi heyətlə tərbiyəvi söhbət aparılır. Hərbi qulluqçuların mənəvi-psixoloji durumları öyrənilir və aidiyyəti üzrə məruzə olunur".

Mayor A.İmanov, həmçinin qarovulun şəxsi heyəti üçün tərbiyə işi planının tərtib olunduğunu söyləyərək, fəallar tərəfindən müvafiq tədbirlərin icrasının təmin edildiyini diqqətə çatdırdı.

**kapitan Şahin Cəfərzadə**

3_Layout 1 12.09.2025 12:46 Page 1



# ZABİTİN VƏTƏN SEVGİSİ

**Kəndimiz Vejnəli bizim keçmişimiz, bu günümüz və gələcəyimizdir**



Mən 1995-ci ildə Bakıda doğulmuşam. Uşaqlığım şəhər mühitində keçsə də, yaddaşımda hər zaman bir kəndin adı qalıb - Vejnəli. Bu ad mənim üçün yalnız coğrafi bir məkan deyil, həm də yaddaşda yaşayan bir xatirə, bir hekayə, bir nisgildir. Valideynlərim, nənə-babam həmişə Vejnəlidən danışıblar. Uşaq vaxtı anlamadığım, amma dərin bir duyğuyla qulaq asdığım o söhbətlərdə torpaq sevgisi, itki ağrısı, eyni zamanda qürur var idi.



**Coğrafi mövqe və təbiətin gözəlliyi**

Vejnəli kəndi Zəngilan rayonunun cənub-qərbində və Ermənistanla sərhəd xəttinə - Zəngəzur dəhlizinə yaxın mövqedədir. Kənd ərazisi əsasən dağətəyi zonada yerləşir, bu isə ona həm strateji, həm də təbii gözəllik baxımından xüsusi üstünlük verir. Ətraf dağlar kəndi əhatə edir, yaz aylarında yaşıl don geyinir, payızda isə narıncı-qırmızı rənglərə bürünür. Dağların qoynunda yerləşən bu kənd həm təbiətin gözəlliklərini, həm də insanın mənəvi rahatlığını özündə birləşdirən nadir məkanlardan biridir. Vejnəlinin təbiəti təkcə gözəl deyil, həm də bərəkətlidir. Torpaqları münbit, suyu şəfalı, havası təmizdir. Valideynlərimin danışdıqlarından bilirəm ki, bu kənddə insanlar əkin-biçinlə məşğul olub, bağ-bağça salıb, təbiətlə harmoniyada yaşayıblar. Hər evin həyətində meyvə ağaclarını və bostan sahələrini sulayan arxlar var imiş.

**Vejnəli qızıl yatağı - təbii sərvət və iqtisadi əhəmiyyət**

Vejnəlini rayonumuzun digər kəndlərindən fərqləndirən əsas cəhətlərindən biri də burada yerləşən qızıl yatağıdır. Bu yataq ölkəmizdə sənaye səviyyəsində istismara yararlı nadir qızıl yataqlarından biridir. Azərbaycanın iqtisadi resursları sırasında xüsusi yer tutan bu yataq həm ölkə iqtisadiyyatı, həm də Zəngilan rayonunun gələcək inkişafı üçün mühüm potensiala malikdir. Qızıl yatağı bu torpağın təkcə səthinin deyil, alt qatının da qiymətli olduğunu göstərir. Amma bizim üçün bu torpaq təkcə qızılı ilə yox, həm də keçmişi, insanı və ruhu ilə dəyərlidir.

**İşğal illəri - həsrət və səbr dövrü**

1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən Zəngilan rayonu işğal olundu. Vejnəli kəndi də düşmənin əlinə keçdi. O gündən sonra kəndin sakinləri, o cümlədən mənim doğmalarım da öz yurd-yuvalarından didərgin düşdülər. Vejnəli tərk edilmiş bir kəndə çevrildi. Torpağın yeri dəyişmədi, amma üstündəki izlər, insanların ayaq səsləri susdu. O illərdə kənd haqqında danışmaq ailəmiz üçün həm müqəddəs, həm də kədərli bir mövzu idi. Hər dəfə kəndin adı çəkiləndə baxışlar uzaqlara yönəlirdi. O baxışların içində həm Vejnəlinin gözəlliyi, həm də o gözəlliyin itirilməsi əks olunurdu.

**Zəfər və azadlıq - kəndə qayıdış**

Doğma yurda qayıdış arzusu 2020-ci ildə gerçəyə çevrildi. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman döyüşçülərinin şücaəti nəticəsində Vejnəli kəndi 2020-ci il noyabrın 7-də işğaldan azad edildi. Bu tarix təkcə hərbi zəfər deyildi, həm də bir xalqın ruhunun, ləyaqətinin bərpası idi. Biz Vejnəliyə qayıtdıq. Bu qayıdış xalq olaraq bizim üçün bir intibahın başlanğıcı oldu.

**Bərpa dövrü - yenidən doğulan kənd**

Azad olunduqdan sonra Vejnəli kəndində bərpa işlərinə start verilib. Dövlət tərəfindən yollar çəkilir, infrastruktur yenilənir, yeni yaşayış evlərinin inşasına hazırlıq görülür. Vejnəli yenidən həyat tapır - bu dəfə daha güclü, daha möhkəm təməl üzərində. Qızıl yatağının yenidən istismara verilməsi ilə kəndin və rayonun iqtisadi əhəmiyyəti artır. Bu, yalnız iqtisadi baxımdan deyil, həm də kəndin sosial və mədəni dirçəlişi üçün yeni imkanlar yaradır. Yeni məktəblər, mədəniyyət evləri, səhiyyə müəssisələri inşa ediləcək. Vejnəli müasir kənd modeli kimi yenidən qurulacaq.

**Kəndimizin gələcəyi - ruhumuzun ünvanı**

Mən Vejnəlidənəm. Orada doğulmamışam, amma oranın ruhu içimdədir. Mən bu kəndi babamın susqunluğundan, atamın baxışlarından, nənəmin qürurla dediyi "bizim kəndimiz" sözündən tanımışam. Mənim üçün Vejnəli sadəcə kənd deyil - mənsubiyyətimdir. Arzum budur ki, Vejnəli yenidən uşaqların gülüşü ilə dolsun, həyətlərində çinarlar boy atsın, arxlarından su axsın. İnsanlar yenidən o torpağın üstündə gəzsin, əkin-biçinlə məşğul olsun, bayramlarını doğma yurdda keçirsinlər.

**baş leytenant Fəzail Rzaquliyev**
**16077 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin təlimatçı-psixoloqu**

# GƏNCƏDƏ YERLƏŞƏN HEYDƏR ƏLİYEV MƏRKƏZİNƏ EKSKURSİYA TƏŞKİL OLUNUB

Şəxsi heyətin mənəvi tərbiyəsi, maarifləndirilməsi, dünyagörüşünün, mədəni-estetik səviyyəsinin və dövlətçilik təfəkkürünün düzgün formalaşdırılması, ictimai-siyasi biliklərinin artırılması baxımından tarixi məkanlara, mədəniyyət abidələrinə, muzey və sərgi mərkəzlərinə ekskursiyaları mühüm əhəmiyyət kəsb edir. Digər hərbi hissələrimizdə olduğu kimi, 17072 saylı hərbi hissədə də belə tədbirlər davamlı olaraq təşkil edilir. Hərbi hissənin komandanlığı hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkilini hər zaman nəzarətdə saxlayır.




Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant İramin Mənsimovun və komendant bölüyünün komandiri kapitan Qanboy İbrahimovun rəhbərliyi ilə komendant bölüyünün xidmətdə fərqlənən nümunəvi, intizamlı hərbi qulluqçularının iştirakı ilə Gəncə şəhərində yerləşən Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.



Hərbi qulluqçuları Heydər Əliyev Mərkəzinin bələdçisi Könül Süleymanova qarşılayıb və mərkəz haqqında ətraflı məlumat verib. Bildirilib ki, 2012-ci ilin yanvar ayının 21-də Gəncə şəhərində Heydər Əliyev Mərkəzinin təməli qoyulub və iki ildən sonra tikintisi başa çatıb. 2014-cü ilin yanvar ayında cənab Prezident İlham Əliyevin iştirakı ilə mərkəzin açılış mərasimi keçirilib. Həmçinin qeyd olunub ki, mərkəzin fəaliyyətinin əsas istiqaməti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliğ olunması, gənc nəslə çatdırılmasıdır.

Dörd mərtəbədən ibarət olan mərkəzin tikintisində ən keyfiyyətli materiallardan istifadə olunub. Burada dahi liderin uşaqlıq və gənclik illəri ilə yanaşı, zəngin fəaliyyətinin bütün dövrləri fotostendlərdə öz əksini tapır.

Könül xanım söylədi ki, mərkəzin birinci mərtəbəsində Ümummilli Liderin keçdiyi həyat yolunu və çoxşaxəli fəaliyyətini dolğun əks etdirən xatirə muzeyi yerləşir. Burada Ulu Öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri və Azərbaycan Respublikasının Prezidenti kimi 1993-2003-cü illərdə həyata keçirdiyi böyük işlər, Azərbaycanın rifahı, xoşbəxt gələcəyi naminə apardığı düşünülmüş siyasət, ölkəmizin hərtərəfli sosial-iqtisadi tərəqqisinə yol açan layihələr, ordu quruculuğu, xarici siyasət, mədəniyyət və digər sahələrin inkişafına dair maraqlı fotolar, sənədlər, o dövrə aid kitablar, qəzetlər və başqa materiallar saxlanılır. Həmçinin Ulu Öndərin müxtəlif illərdə Gəncə şəhərinə tarixi səfərlərini əks etdirən kitablar və qəzetlər də nümayiş etdirilir.

Mərkəzdə Gəncənin son illərdə keçdiyi əsaslı sosial-iqtisadi inkişaf yolu, Prezident cənab İlham Əliyevin şəhərə göstərdiyi xüsusi diqqət və qayğının bariz nümunələrinə də geniş yer verilib.

**kapitan Xədicə Hacızadə**

*Şəhidlərimiz*

# SON DÖYÜŞÜ ÇILDIRANDA OLDU VƏ İGİD ƏSGƏRTƏK HƏYATDA İZ QOYDU...

Azərbaycanın müasir müstəqillik tarixinin qanlı-qadalı səhifəsi olan Birinci Qarabağ müharibəsi zamanı xalqımız ağır sınaqlarla üzləşib. Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəmizin ərazisinin bir hissəsi işğal olunaraq uzun müddət düşmən tapdağında qalıb. Bir milyon nəfərə yaxın vətəndaşımızın öz yurdlarından didərgin salınaraq məcburi köçkün vəziyyətinə düşməsi o dövrdə əsl humanitar fəlakətə çevrilib. Yağının ələ keçirdiyi şəhər və kəndlərimiz talanıb və dağıdılıb. Həmin müharibədə xeyli sayda şəhidimiz, itkinimiz və yaralımız olub. Xocalıda soydaşlarımıza qarşı dəhşətli soyqırım törədilib.

1992-ci ilin mart ayının 12-də Ağdam rayonunda Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti erməni işğalçılarına qarşı döyüşə başlayıb. Hərbi qulluqçularımız ön cəbhənin müxtəlif istiqamətlərində mətinliklə vuruşublar və Vətən uğrunda qəhrəmanlıq nümunələri göstəriblər. Birinci Qarabağ müharibəsi gedişində şəxsi heyətin sıralarından 682 nəfər şəhidlik zirvəsinə ucalıb. Onların arasında ölümündən sonra dövlətimizin orden və medalları ilə təltif olunmuş hərbçilər az deyil. Bu hərbçilərdən biri şəhid əsgər Eminov Mübariz Şiralı oğludur. Şəhidin ailəsi, silahdaşı ilə əlaqə saxladım, həmçinin bəzi sənədli mənbələrdən məlumatlar topladım.

O, 1973-cü il iyulun 9-da Göyçay şəhərində doğulub. Atası Şiralı Eminov uzun illər sürücü işləyib, ömrünün çox hissəsi yollarda keçib, zəhmətkeş və xeyirxah insan kimi tanınıb. 2021-ci ilin mart ayında dünyasını dəyişib. Anası Adilə Eminova isə mühafizə polisində operator vəzifəsində vicdanla çalışıb, pensiyaçıdır. Aruz Eminov şəhidin qardaşıdır, ondan bir yaş kiçikdir. "Aztelekom"un yerli qovşağında rabitəçidir. Mübarizi və Aruzu valideynləri ədəb-ərkanlı, dürüst, zərərli vərdişlərdən uzaq duran, əməyə qatlaşan, təhsilə həvəslə yanaşan, şəxsi ləyaqətini uca tutan, vətənpərvər övladlar kimi yetişdiriblər.

Mübariz Göyçay şəhərindəki 6 saylı tam orta məktəbi bitirib. Bununla yanaşı, o, 7 illik musiqi məktəbində təhsil alıb və gitarada ifa etməyi öyrənib. Şagird olduğu vaxtdan hərbçi peşəsinə rəğbət bəsləyib, gələcək həyat yolunu orduya bağlamağı arzulayıb. Musiqi istedadı onun ustalıqla ifa tərzində özünü büruzə verib. Xüsusən milli musiqimizi səsləndirmək onda xoş ovqat yaradıb. Yeniyetmə yaşından idmanla da davamlı məşğul olub, fiziki hazırlığında geriləməmək üçün öz üzərində çalışıb, özünümüdafiə fəndlərinə yiyələnib.

1990-cı ildə Mübariz Rusiya Federasiyasının o vaxtkı Leninqrad (indiki Sankt-Peterburq) şəhərində yerləşən SSRİ Silahlı Qüvvələrinin Quru Qoşunlarına məxsus Ali Hərbi Məktəbə qəbul olunaraq orada qısa müddət hərbi təhsil alıb. Belə ki, respublikamızda Qarabağ münaqişəsinin daha da alovlanması, ermənilərin azğınlıqları, dinc soydaşlarımıza qarşı etdikləri vəhşiliklər barədə xəbərlər onu dərindən sarsıdaraq hiddətləndirib. Bundan əlavə, Ali Hərbi Məktəbdə təhsil alan erməni kursantların alçaq hərəkətlərinə məktəb komandanlığının göz yumması və onlarla əlaqədar ciddi tədbir görməməsi Mübarizin səbrini daşırıb. Bütün bunlara etiraz əlaməti olaraq orada təhsilini dayandırıb və respublikamıza dönüb. Həmin dövrdə artıq SSRİ-nin süqutu prosesi geniş vüsət almışdı, nəhəng imperiyanı xaos, hərc-mərclik bürümüşdü.

Bakıya qayıdan Mübariz Rabitə Texnikumuna (indiki Rabitə və Nəqliyyat Kolleci) qəbul olunub. Texnikumda rabitəçi ixtisası üzrə həm nəzəri bilikləri, həm də praktiki bacarıqları mənimsəyib. Ancaq orta ixtisas təhsilini başa çatdırmayıb.

1991-ci ilin oktyabr ayının 18-də Azərbaycanın dövlət müstəqilliyi elan edilib. Göstərilən ilin dekabr ayında Mübariz müstəqil respublikamızın DİN-in tabeliyində yaradılan Daxili Qoşunların sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunlarda xidmətə başlayan ilk əsgərlərdən biri olub. 6500 saylı hərbi hissədə (1993-cü ilin yanvar ayından Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tərkibinə verilib) ana dilimizdə hərbi and içib. Hərbi hissənin müvafiq bölməsində xidmət edərək, onun təyinatından irəli gələn cəzaçəkmə müəssisəsinin mühafizəsi üzrə vəzifələri ayıq-sayıqlıqla yerinə yetirib. Belə bir çətin xidmət növündə komandirləri tərəfindən müsbət xarakterizə olunub.



1992-ci ilin əvvəllərindən başlayaraq Qarabağ və Şərqi Zəngəzur bölgələri, habelə Ermənistanla həmsərhəd olan bütün rayonlarda şiddətli döyüşlər gedib. Müharibənin miqyası genişləndikcə Daxili Qoşunların hərbi hissələrində də şəxsi heyət "həyəcan" siqnalı ilə qaldırılaraq mərhələli şəkildə ön cəbhəyə göndərilib. Bu məqamlarda Mübariz komandirlərinə müraciət edərək döyüşlərə qatılmaq istədiyini deyib, odlu səngərdə olmağa can atıb. Nəhayət, 1992-ci ilin avqust ayında döyüşçü kimi ön cəbhəyə qədəm basıb. 3650 saylı hərbi hissənin (indiki 67987 saylı hərbi hissə) tərkibində döyüş əməliyyatlarında layiqincə iştirak edib. Ağdam, Xocalı və Ağdərə rayonlarının ərazilərində erməni işğalçılarına qarşı qətiyyətlə vuruşub. Avtomat silahı ilə hədəfə aldığı neçə-neçə düşmən hərbçisinin həyatına son qoyub, onlara məxsus silah-sursatları qənimət götürüb. Kəşfiyyat xarakterli tapşırıqların icrasında igidlik nümayiş etdirib, işğalçıların mövqeləri, canlı qüvvə və texnikaları, artilleriya vasitələri barədə zəruri məlumatlar aidiyyəti üzrə komandanlığa çatdırılıb. Tərkibində olduğu kəşfiyyat qrupunun sayıqlığı və çevikliyi sayəsində döyüş tapşırığının icrasına yollanan hərbi qulluqçularımızdan ibarət dəstə mühasirə həlqəsi qapanmadan təhlükəli ərazidən çıxarılıb.

"Kobra" ləqəbi ilə tanınmış döyüşçü, şəhid baş çavuş Elpərəst Hüseynovun yaxın silahdaşı olmuş Mübariz müharibənin hər üzünü görüb, dəfələrlə ölümə sinə gərib, işğalçılara qan uddurub.

Birinci Qarabağ müharibəsinin iştirakçısı, ehtiyatda olan əsgər Habil Əkbərov Mübarizlə birlikdə Ağdam rayonunda döyüş yolu keçib. O bildirdi ki, şəhid onun yaddaşında qorxmaz, fədakar və etibarlı silahdaş kimi qalıb. Müharibənin əzab-əziyyətlərinə dözüb, yuxusuz, taqətsiz olduğu məqamlarda, çıxılmaz görünən vəziyyətlərdə belə özünü toparlayıb, döyüşdə ruh düşkünlüyünə yol verməyib.

1992-ci il noyabrın 10-da Ağdərə rayonunun Çıldıran kəndi istiqamətində döyüş zamanı Mübariz və bir neçə nəfər silahdaşı qəfil həmlə edərək ermənilərin bəzi atəş nöqtələrini susdurublar. Ancaq o, düşmən snayperinin atəşi nəticəsində sol döş qəfəsindən ağır yaralanaraq şəhadətə yüksəlib. Sözügedən silahdaşları da son nəfəslərinədək vuruşublar.

Vətən naminə həyatını qurban vermiş döyüşçü Göyçay şəhərinin Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 6 may 2005-ci il tarixli müvafiq Sərəncamı ilə əsgər M.Eminov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

Göyçay şəhərindəki 13 saylı uşaq bağçası şəhidin adını daşıyır. Eminovlar ailəsinin yaşadığı evin yerləşdiyi küçədə Mübarizin şəkli əks olunan plakat quraşdırılıb.

Müəlliflər Əkbər Əlioğlunun "Ruhların səsi" və Jalə Cəfərovanın "Kiçik dünyanın böyük insanları" kitablarında şəhidin ömür yolu işıqlandırılıb.

Qeyd edim ki, Mübarizin qohumları arasında iki nəfər Vətən naminə şəhidlik zirvəsinə ucalıb. Qardaşı A.Eminovun böyük oğlu döyüşçünün adını daşıyır.

Eminovlar ailəsi üçün ötən illər ərzində Mübarizin yoxluğu ilə barışmaq çox çətin olub, atasının vəfat etdiyi günədək baxışlarından kədər çəkilməyib, oğul həsrətini ürəyində yaşadıb. Bu ağrı-acı anasının səhhətinə təsirsiz ötüşməyib. Qardaşı Aruz söylədi ki, Mübarizlə olan söhbətlərini, onun məsləhətlərini unutmayıb, sonralar həyatı boyu bu ünsiyyətə ehtiyac duyub. Dara düşəndə, sıxıntı keçirəndə daxilən səsləndirdiyi "möhkəm ol, sən şəhid Mübarizin qardaşısan" sözləri ona mənəvi güc verib.

44 günlük Vətən müharibəsi və antiterror tədbirləri zamanı "dəmir yumruq" zərbəsi ilə erməni işğalı və separatizminə son qoyulub, ölkəmizin suverenliyi, eləcə də ərazi bütövlüyü tam bərpa edilib. Şəhidlərin qanlarının yerdə qalmaması və qisaslarının alınması ailələri üçün böyük təskinlikdir.

1993-cü ilin fevral ayının 5-dən 2023-cü ilin sentyabr ayının 20-dək Ağdərə rayonunun Çıldıran kəndi işğal altında qalıb. Keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində kənd qalib ordumuz tərəfindən azad olunub.

Vətən naminə şəhid olmaq əbədiyyət məqamıdır. Bu şərəfli yolu qeyrətli, sayseçmə oğullar keçib. Xalqımız onların hər birinin xatirəsini daim ehtiramla anacaqdır. Şəhidlərin və qazilərin davamçıları müqəddəs torpağımızı göz bəbəyi kimi qoruyurlar, bundan sonra da yağının önündə yenilməz sipər kimi dayanacaqlar.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**Yalçın Abbasov**

4_Layout 1 12.09.2025 12:56 Page 1



# ŞӘXSİ HEYӘTİN KEYFİYYӘTLİ VӘ KALORİLİ QİDALANMASI TӘMİN OLUNUR



Daxili Qoşunların komandanlığının diqqət yetirdiyi əsas sahələrdən biri şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlıqlarının qorunması və səhhətlərinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.

16076 saylı hərbi hissənin maddi-texniki təminat xidmətlərinin ərzaq və əşya xidmətinin rəisi kapitan Toğrul Qurbanov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlıqlarının qarşıya qoyduqları ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.



Kapitan T.Qurbanov şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Qeyd etdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq onlar mövsümi salatlar və meyvə şirələri ilə də təmin olunurlar. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən təşkilini də bildirdi. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Zabit görülən işlərdə təminat manqasının komandiri - baş aşpaz çavuş Ramil Alxasovun zəhmətini xüsusilə vurğuladı. Onun öz vəzifələrinin öhdəsindən layiqincə gəldiyini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün əməyini əsirgəmədiyini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında işçi - aşpazlardan Şölə Hüseynovanın, Kəmalə Novruzovanın, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından isə əsgər Tural Yusublunun fəaliyyətini müsbət xarakterizə etdi.

**kapitan Şahin Cəfərzadə**

---

*NÜMUNƏVİ XİDMƏT*

# VӘTӘNPӘRVӘR, MӘĞRUR HӘRBİ QULLUQÇU

16073 saylı hərbi hissənin hərbi qulluqçusu olan çavuş Əvəz Əliyev nümunəvi xidmətilə fərqlənir. O, 1992-ci il noyabrın 24-də Yevlax rayonunun Malbinəsi kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Yevlax rayonunda yerləşən T.İsmayılov adına tam orta məktəbdə alıb. 2011-ci ildə SHXÇDX-nin Yevlax Rayon Şöbəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. 16073 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət keçib.



2013-cü ildə xidmətini başa vuran gənc həyatını hərbi peşəyə həsr etmək qərarına gəlir. Bu arzusunu reallaşdırmaq üçün elə həmin ildən 16073 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Özünün dediyinə görə, hələ uşaq ikən hərbçi olmaq həvəsilə yaşayıb. Hazırda hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun atıcı-snayperi vəzifəsindədir.

Vətənpərvərlik əqidəsini hər şeydən üstün tutan çavuş Ə.Əliyev bu gün hərbi xidmətdə əzmkarlıq, dözümlülük göstərərək, funksional vəzifələrini layiqincə yerinə yetirir. Xüsusi təyinatlı dəstənin komandiri mayor Həmzə Salmanov tərəfindən müsbət xarakterizə olunur.

Qeyd edək ki, nümunəvi xidməti nəzərə alınaraq ötən ilin mart ayında Daxili Qoşunların "Xidmətdə fərqləndiyinə görə" döş nişanı ilə mükafatlandırılıb.

Hərbi xidmətin bütün çətinliklərinə baxmayaraq, döyüş hazırlığının qorunub saxlanılması üçün bütün qüvvəsini səfərbər edən çavuş Ə.Əliyev şəxsi məsuliyyət hissinin onun üçün önəmli olduğunu vurğulayaraq, Daxili Qoşunların sıralarında xidmət etməkdən hər zaman qürur duyduğunu nəzərimizə çatdırdı.

**kapitan Nigar Ağayeva**

---

# TİBB XİDMӘTİ VӘZİFӘLӘRİNİ VİCDANLA YERİNӘ YETİRİR

Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilir.

17072 saylı hərbi hissənin tibb xidmətinin şəxsi heyəti vəzifə borclarının icrasına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Tibb xidmətinin rəisi tibb xidməti mayoru Məhəmmədəli





Məmmədov gündəlik olaraq görülən işlər barədə məlumat verərkən bildirdi ki, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın tələbləri və hərbi hissə komandiri tərəfindən təsdiq olunmuş müvafiq plan əsas götürülür. İlk olaraq xidmət daxilində iclas keçirilir, görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. O, həmçinin əlavə etdi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət diqqətdə saxlanılır.

Bununla yanaşı, qarovul xidmətinə, eləcə də digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, sağlamlığında problem aşkarlanan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə qəbul olunur. Bölmələrdə səhər və axşam saatlarında termometriya aparılır.

Tibb xidmətinin hərbi qulluqçuları da vəzifə borclarını keyfiyyətlə yerinə yetirirlər. Belə ki, tibb məntəqəsinin həkim-terapevti baş gizir Aynur Vəliyeva, tibb məntəqəsinin feldşeri gizir Kamran Cənnətov, sanitar təlimatçı - dezinfektorlar gizir İlkin Allahverdiyev və baş çavuş İsrəfil Allahverdiyev verilən tapşırıqları uğurla və vaxtında icra edirlər. Əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargahın binasında, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyi qorunub saxlanılır.

Əminliklə deyə bilərik ki, şəxsi heyətin sağlamlığı etibarlı əllərdədir.

**kapitan Xədicə Hacızadə**

---

# MӘSULİYYӘTLİ RADİOTELEFONÇU

16077 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər İsmayıl Abdurzayevdir. O, 2006-cı il dekabrın 25-də Siyəzən rayonunda anadan olub. 2012-2022-ci illərdə Xaçmaz rayonu Ağaverdi oba kəndində yerləşən tam orta məktəbdə oxuyub. 2022-2024-cü illərdə Xaçmaz rayonunda yerləşən peşə liseyində maşinist ixtisasına yiyələnib. Uşaq yaşlarından idmana maraq göstərib. 2025-ci ilin yanvar ayında SHXÇDX-nin Xaçmaz Rayon Şöbəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. Həmin ilin fevral ayında 25032 saylı hərbi hissədə kiçik mütəxəssis hazırlayan bölmədə rabitəçi ixtisasına yiyələnərək xidmətini davam etdirmək üçün 16077 saylı hərbi hissənin təminat bölüyünün rabitə taqımının radiotelefonçusu vəzifəsinə təyin edilib.



Əsgər İ.Abdurzayev bildirdi ki, rabitə növbətçisi kimi xidmətə cəlb olunur və gündəlik Daxili Qoşunların Baş İdarəsi, eləcə də hərbi hissənin bölmələri ilə rabitə əlaqəsini yoxlayır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırır.

Hərbi qulluqçumuz xidməti-vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları ləyaqətlə yerinə yetirir, hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətini onlara uyğun təşkil edir. O, bölük komandiri tərəfindən müsbət xarakterizə olunur.

**16077 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

---

*Həkim məsləhəti*

# BROKOLİNİN KOLON XӘRÇӘNGİNӘ QARŞI QORUYUCU TӘSİRİ ORTAYA ÇIXIB

Kolon xərçəngi qlobal səviyyədə ciddi ictimai sağlamlıq problemi olaraq qalır. Təkcə 2022-ci ildə bu xəstəlik 903 min 859 nəfərin həyatına son qoyub və hər il təxminən 1,9 milyon yeni hal qeydə alınır. Hazırda kolon xərçəngi dünyada üçüncü ən çox rast gəlinən xərçəng forması və xərçəngdən ölüm səbəbləri arasında ikinci yerdədir. Profilaktik faktorlar arasında pəhriz ən mühüm və nəzarət edilə bilən amillərdən biri hesab olunur. "BMC Gastroenterology" jurnalında dərc edilən genişmiqyaslı sistematik araşdırma göstərib ki, brokoli, Brüssel kələmi, gül kələmi və digər xaççiçəkli tərəvəzlərin daha çox istehlakı kolon xərçəngi riskini əhəmiyyətli dərəcədə azalda bilər.



AZƏRTAC "MedicalXpress" portalına istinadla xəbər verir ki, araşdırmada 639 min 539 iştirakçının məlumatları, o cümlədən 97 min 595 kolon xərçəngi hadisəsi təhlil edilib. Ümumilikdə 17 tədqiqatın nəticələrinə əsaslanaraq, müntəzəm şəkildə bu tərəvəzləri qəbul edən şəxslərdə xəstəlik riskinin 20 faiz aşağı olduğu müəyyənləşib. Tədqiqatçılar gündəlik 20-40 qram xaççiçəkli tərəvəz qəbulunun riskin ən effektiv şəkildə azalması ilə əlaqəli olduğunu bildirirlər. Gündəlik 20 qramdan etibarən qoruyucu təsir müşahidə olunmağa başlayır, 40 qramadək isə artaraq davam edir. Lakin 40 qramdan yuxarı qəbul edildikdə əlavə əhəmiyyətli fayda qeydə alınmayıb. Xaççiçəkli tərəvəzlər flavonoidlər, lif, C vitamini və karotenoidlərlə yanaşı, qlükozinolatlar baxımından da zəngindir. Bu birləşmələr çeynəmə zamanı sulforafan kimi bioaktiv izotiyosiyanatlara parçalanır. Sulforafan kanserogenlərin təsirini azalda, xərçəng hüceyrələrində apoptozu stimullaşdıra, yeni damarların əmələ gəlməsinə maneə törədə və hüceyrə dövrünü tənzimləyərək nəzarətsiz hüceyrə böyüməsinin qarşısını ala bilər.

Bu araşdırma gündəlik qidalanmaya brokoli və digər xaççiçəkli tərəvəzlərin daxil edilməsinin kolon xərçəngi riskini azaltmaq üçün potensial olaraq mühüm qida strategiyası ola biləcəyini göstərir. Bununla belə, səbəb-nəticə əlaqəsini dəqiq müəyyən etmək üçün əlavə klinik və uzunmüddətli tədqiqatlara ehtiyac var.

---

# PEŞӘSİNӘ YAXŞI BӘLӘD OLAN SÜRÜCÜ

16076 saylı hərbi hissənin təminat bölüyünün intizamı, layiqli xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından biri əsgər Şahvələd Eyvazovdur. Bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Eltac Səfərli tərəfindən müsbət xarakterizə olunan əsgərimiz qısa zamanda digər hərbi qulluqçulara nümunə olmağı bacarıb.



Əsgər Ş.Eyvazov 2007-ci il aprelin 16-da Zərdab rayonunun Məmmədqasımlı kəndində anadan olub. 2013-2024-cü illərdə doğma kəndində yerləşən Nəriman Nərimanov adına tam orta məktəbdə təhsil alıb. Uşaqlıqdan idmanın qaydasız döyüş növü ilə məşğul olub.

2025-ci ilin yanvar ayında 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb, fevral ayında xidmətini davam etdirmək üçün 16076 saylı hərbi hissəyə göndərilib. Avtomobil taqımında sürücü vəzifəsindədir. Yol hərəkəti qaydalarını bilir, avtomobilin texniki xüsusiyyətləri və mexanizmlərinə yaxşı bələddir. O, daim öz üzərində çalışır, özünə qarşı tələbkardır. Xidmətə ciddi münasibətilə seçilir. Hərbi xidmətə həvəsi, əzmkarlığı ilə yanaşı, lazım olduqda əsgər yoldaşlarına da köməklik göstərməsi onun müsbət şəxsi keyfiyyətlərindəndir.

Daxili Qoşunlarda xidmətilə fəxr edən əsgər Ş.Eyvazov hər bir gəncin Vətənə olan borcunu layiqincə qaytarmasının, komandirlər tərəfindən qarşıya qoyulan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinin vacibliyini vurğuladı.

**16076 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

---

## HӘRBİ XӘBӘRLӘR -YENİLİKLӘR-

### MKE şirkəti ALTAY tankını silah sistemləri ilə təmin edir

Türkiyənin milli əsas döyüş tankı ALTAY-ın seriyalı istehsalında ən kritik komponentlərdən biri olan 120 mm 55 kalibrli əsas silah sistemi və qülləyə paralel quraşdırılmış 7.62 mm PMT-76/57A pulemyotu "Makine ve Kimya Endüstrisi" (MKE) şirkəti tərəfindən istehsal olunur. MKE-dən "Poliqon"a bildirilib ki, layihə çərçivəsində bu günə qədər ALTAY tankının əsas podratçısı BMC şirkətinə müxtəlif sayda mühüm silah sistemi və paralel köməkçi silah təhvil verilib.

Qeyd olunub ki, son hədəf təxminən 250 ədəd silah sistemi və köməkçi silahın



istehsalı ilə yanaşı, texniki dəstək, təlim və logistika xidmətlərinin də təmin edilməsidir.

---

## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası istefada olan polkovnik-leytenant Səməd Paşayevin **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TӘSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000